Orxan Mübariz oğlu Bağırov

UOT: 338.45; JEL: L25.

İqtisadiyyatın diversifikasiyasının dünya təcrübəsi

Xülasə

Məqalədə dünyanın müxtəlif ölkələrində tətbiq edilmiş iqtisadi diversifikasiya siyasətləri nəzərdən keçirilmiş və onların nəticələri müqayisə edilmişdir. İlk növbədə Birləşmiş Ərəb Əmirliklərinin iqtisadi diversifikasiya istiqamətində həyata keçirdiyi tədbirlər nəzərdən keçirilmişdir.

Açar sözlər: *İqtisadiyyatın diversifikasiyası, bilik iqtisadiyyatı, hüquqi islahatlar, emal sənayesi, iqtisadi koridor, sənayeləşmə, yoxsulluq.*

Giriş

İqtisadiyyatın diversifikasiya edilməsi vasitəsilə resurslardan asılı olan iqtisadiyyatların səmərəli fəaliyyətinin təmin edilməsi müasir dövrümüzdə müxtəlif ölkələr tərəfindən iqtisadi siyasətin əsas istiqaməti kimi seçilmişdir. Buna səbəb isə iqtisadi qloballaşmanın genişlənməsinin iqtisadi şokların daha tez və asanlıqla digər iqtisadiyyatlara da yayılmasına imkan yaratmasıdır. Diversifikasiya siyasətinin uğurlu olması iqtisadi sistemin tamamilə yenidən qurulmasını şərtləndirir. Bu baxımdan iqtisadi diversifikasiya siyasətinin həyata keçirilməsi uzun müddətli dövrdə mümkün olur. Qısa müddətli dövrdə isə əsas məqsəd iqtisadi transformasiyanın daha asan və səmərəli şəkildə həyata keçirilməsi üçün iqtisadi islahatlar vasitəsilə zəruri mühitin yaradılması olmalıdır. İqtisadi diversifikasiyanın geniş yayılmasına baxmayaraq bu siyasət üzrə konkret hər hansı bir modelin istifadə edilməsi səmərəli deyildir və hər bir ölkə üçün yerli iqtisadi amillər nəzərə alınmaqla özünəməxsus modelin formalaşdırılması önəmlidir. Bu baxımdan dünya ölkələrinin iqtisadi sistemlərinin və həyata keçirilən diversifikasiya siyasətlərinin müxtəlifliyini nəzərə alaraq müxtəlif ölkələrdə həyata keçirilmiş iqtisadi diversifikasiya siyasətinin reallaşdırılması nəticəsində əldə edilmiş nəticələrin təhlil edilməsinin əhəmiyyəti böyükdür.

Diversifikasiya siyasətinin Birləşmiş Ərəb Əmirliyi təcrübəsi

Bir çox ərəb ölkələri kimi BƏƏ də zəngin neft ehtiyatlarına malikdir və bildiyimiz kimi iqtisadiyyatda neft amilinin rolu böyükdür. Neftdən asılılığın səmərəli olmaması BƏƏ hökumətini bu istiqamətdə tədbirlər görməyə sövq etmişdir. Nəticədə, iqtisadiyyatın diversifikasiyası BƏƏ-nin iqtisadi inkişaf siyasətinin altı əsas komponentlərindən birinə çevrilmişdir (1, səh 18). 2012-ci ildə BƏƏ hökuməti tərəfindən "BƏƏ 2021 gələcəyə baxış" strategiyası qəbul edilmişdir. Strategiya çərçivəsində əsas 12 icra göstəricisi müəyyən edilmişdir. İlk göstərici qeyri-neft sektoru üzrə real ÜDM artımıdır. Bu göstərici qeyri-neft sektorlarında il ərzində real artımı müəyyən edir. BƏƏ-nin illik iqtisadi hesabatına əsasən qeyri-neft sektorunun ümumi iqtisadi artımda payı 2012-ci ildə 3,4% təşkil etmişdir və strategiyada 2021-ci il qədər qeyri-neft sektorunda real artım göstəricisi üzrə hədəf 5% səviyyəsində müəyyən edilmişdir. Gələcəyə baxış strategiyasının əsas istiqamətlərindən biri də bilik iqtisadiyyatının inkişaf etdirilməsi olduğundan təhsil sisteminin təkmilləşdirilməsi BƏƏ üçün əsas məqsədlərdən birinə çevrilmişdir. Strategiyada müəyyən edilmiş istiqamətlərdən biri də ölkənin hüquq sistemində islahatların həyata keçirilməsidir. İqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində hüquqi islahatlar əsasən sahibkarların hüquqlarının təmin edilməsinə yönəldilmişdir. Qeyd etdiyimiz istiqamətlərlə yanaşı strategiyada digər dünya səviyyəli səhiyyə sisteminin qurulması, davamlı inkişafın və infrastrukturun təmin edilməsi kimi istiqamətlər də yer alır.

©Orxan Bağırov Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

BƏƏ tərəfindən iqtisadiyyatın diversifikasiya edilməsi prosesi hələ 1970-ci illərdən başlamışdır. Həmin dövrdə iqtisadi diversifikasiya əsasən kapitala əsaslanan sənaye sahələrinin inkişaf etdirilməsinə əsaslanırdı. 1980-ci illərdən başlayaraq isə bu sahələr sırasına xidmət sektoru da daxil oldu və diversifikasiya prosesinin səmərəliliyinin artırılması məqsədilə azad iqtisadi zonalar yaradıldı. 1990-cı illərə qədər artıq diversifikasiya siyasətinin nəticələri özünü göstərməyə başladı. Belə ki, qeyri-neft sektorunun ÜDM-də payı 1980-ci ildəki 36,7% səviyyəsindən 1991-ci ildə 57% səviyyəsinə yüksəlmişdir. BƏƏ-də eyni zamanda müxtəlif əmirliklər özlərinin iqtisadi inkişaf strategiyalarını formalaşdırmışdır. Belə strategiyalardan biri də Abu-Dabi əmirliyi tərəfindən müəyyən edilmiş "Gələcəyə İqtisadi baxış 2030" strategiyasıdır. Abu-Dabi ən böyük əmirlik olmaqla yanaşı ölkənin neft və qaz ehtiyatlarının 90%-dən çoxuna sahibdir. Bu baxımdan bu əmirlikdə diversifikasiya siyasətinin həyata keçirilməsinə daha böyük diqqət ayrılır. Dubay Əmirliyi isə 2014-cü ildə 2021-ci ilə qədər inkişaf planını müəyyən etmişdir. Bu plan eyni zamanda ölkənin ümumi inkişafı üçün müəyyən edilmiş "2021 gələcəyə baxış" strategiyasına əmirliyin inkişafının uyğunlaşdırılması məqsədi daşıyır. Ümumiyyətlə, BƏƏ iqtisadiyyatın diversifikasiya edilməsi sahəsində ən böyük uğurlarını Dubayda əldə etmişdir. 2000-ci illərin əvvəllərindən etibarən Dubay əsasən beynəlxalq xidmət sahəsində uğurlar əldə edərək maliyyə, əmlak, alış-veriş, turizm və yenidən ixrac sahələrində regional mərkəzə çevrilmişdir (2, səh 3). Dubayın tətbiq etdiyi iqtisadi model ənənəvi idarəetmə sistemindən uzaq olmaqla digər Körfəz Ölkələrinin iqtisadi modellərindən fərqlənir (3, səh 42-50).

Qarşıya qoyulmuş məqsədlərə çatdıqca BƏƏ iqtisadi diversifikasiya sahəsində əhəmiyyətli nəticələr əldə etmişdir. 2013-cü ildə BƏƏ-ində qeyri-neft sektoru ÜDM-in 70%-nə çatmışdır. Diversifikasiyanın həyata keçirilməsi üçün turizm, daşınmaz əmlak, əyləncə və istirahət sahələrində böyük infrastrukturun formalaşdırılması üçün investisiyalar həyata keçirilmişdir. Bu diversifikasiya prosesindən ən çox BƏƏ-nin ən varlı əmirlikləri olan Dubay və Abu-Dabi əmirlikləri faydalanmışdır. Şimalda yerləşən əmirliklərin də inkişaf etməsinə baxmayaraq bu inkişaf prosesi daha çox dövlətin ayırdığı qrantlar əsasında baş vermişdir.

Diversifikasiya siyaətinin Malaziya təcrübəsi

İqtisadiyyatın diversifikasiya edilməsi istiqamətində uğurlu nəticələr əldə etmiş dövlətlərdən biri də Malayziyadır. Malayziya hökuməti özünün müstəqil iqtisadi siyasətini 1957-ci ildə Britaniya müstəmləkəsindən azad olduqdan sonra həyata keçirməyə başlamışdır. Bundan sonrakı dövrlərdə hökumətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri iqtisadiyyatın asılı olduğu qalay, kauçuk, neft və qaz kimi məhsulların ixracından asılılığın aradan qaldırılması olmuşdur. Bu isə həmin məhsulların beynəlxalq bazarlarda qiymətlərinin volatil olması və bu volatilliklərn doğurduğu şokların asanlıqla ölkə iqtisadiyyatına yol tapması ilə bağlı olmuşdur. 1970-ci illərə qədər müxtəlif tədbirlər həyata keçirilsə də iqtisadiyyatın əsaslı sürətdə diversifikasiya edilməsi mümkün olmamışdır. Bu isə ölkənin müharibədən sonra iqtisadiyyatı bərpa etməsi üçün müəyyən zamanın tələb olunması və 70-ci illərdə dünya bazarlarında əmtəələrin qiymətində baş verən kəskin azalmalar ilə bağlı olmuşdur.

1970-1990-cı illəri əhatə edən dövr isə Malayziya iqtisadiyyatının çiçəklənməsi dövrü kimi yadda qalmışdır. Bu dövrdə iqtisadiyyatda əsaslı struktur dəyişiklikləri həyata keçirilmişdir. Malayziyada diversifikasiya siyasəti özünəməxsus bir xüsusiyyətə malik olmuşdur. Belə ki, hökumətlər həmişə ölkənin böyük ehtiyatlarına malik olduğu resursların dünya bazarlarında qiymətlərində baş verə biləcək dəyişiklikləri proqnozlaşdırmış və dövlət proqramları həyata keçirərək diversifikasiya vasitəsilə qiymət azalmasının mənfi təsirlərindən iqtisadiyyatı qorumağa çalışmışdır. Malayziyanın iqtisadi diversifikasiya siyasəti əsasən iki istiqamətdə baş vermişdir. Birincisi kənd təsərrüfatının kauçukdan daha çox palma yağının və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

digər bu kimi kənd təsərrüfatı məhsullarının istehsalına yönəldilməsi, digəri isə ilkin məhsul istehsalı ilə məşğul olan sahələrdən orta sənaye sahələrinə keçid olmuşdur (4, səh 5). Malayziyada ixracyönümlü emal sənayelərin inkişafı 70-ci illərdən sonra sürətlənməyə başlamışdır. İxracyönümlü şirkətlərə investisiyaların cəlb edilməsi 1968-ci ildə İnvestisiyaların Təşviqi Aktının qəbul edilməsi ilə artmağa başlamışdır. Daha sonra 1971-ci ildə Azad İqtisadi Zona aktının və 1986-cı ildə Təşviqlərin Dəstəklənməsi aktının qəbul edilməsi diversifikasiyanın genişlənməsinə gətirib çıxarmışdır.

Hal-hazırda Malayziyada diversifikasiya siyasəti iki əsas strategiya əsasında həyata keçirilir: əsas fokuslanmalı inkişaf sektorlarının və daha zəif inkişaf etmiş ərazilərdə inkişaf imkanlarının müəyyən edilməsi. Birinci strategiyanın tərkib hissəsi kimi 2010-cu ildə İqtisadi Transformasiya Proqramı qəbul edilmişdir (5, səh 1). Bu proqramda Malayziyanın rəqabətdə üstünlük əldə edə biləcəyi milli iqtisadiyyatın əsas 12 sahəsi müəyyən edilmişdir. Müəyyən edilmiş sahələrin hər biri investisiya və dövlət dəstəyi ilə təmin edilmiş, nəticədə transmilli şirkətlərin cəlb edilməsi üçün səmərəli investisiya mühiti yaradılmışdır.

Malayziyada diversifikasiya siyasətinin ikinci strategiyasının reallaşdırılması üçün isə iqtisadi koridorların yaradılması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Malayziyanın müxtəlif regionları arasında mövcud olan inkişaf fərqlərinin aradan qaldırılması üçün dövlət tərəfindən əsas beş iqtisadi koridor müəyyənləşdirilmişdir. İnvestisiyaların cəlb edilməsi və iqtisadi inkişafın sürətləndirilməsi üçün hər bir koridor üzrə vergi güzəştləri tətbiq edilir. 2015-ci ilin sonuna qədər Şərq Sahilləri İqtisadi Regionuna (East Coast Economic Region) 20.8 milyard ABŞ dolları həcmində şəxsi investisiya cəlb edilmişdir. Bu isə müəyyən edilmiş investisiyanın həcmi ilə bağlı hədəfin artıq 76%-nin reallaşması deməkdir.

Diversifikasiya siyaətinin Botsvana təcrübəsi

Dünyanın resurslarla zəngin olan ölkələrindən biri də Botsvanadır. Zəngin almaz ehtiyatları bu ölkənin inkişafında və mövcud olduğu qitədə güclü iqtisadiyyatlardan birinə çevrilməsində böyük əhəmiyyətə malik olmuşdur. Digər ehtiyatlarla zəngin olan ölkələr kimi Botsvana da bu ehtiyatların gətirdiyi fayda ilə yanaşı onlardan asılılığın təhlükəli olduğunu çoxdan anlamışdır və buna görə də iqtisadiyyatın diversifikasiya edilməsi istiqamətində uzun illərdir ki tədbirlər görməkdədir. Botsvanada diversifikasiyanın həyata keçirilməsi üçün sənayeləşmə əsas istiqamətlərdən biri kimi seçilmişdir. Bu məqsədlə də müxtəlif dövrlərdə ölkə iqtisadiyyatında sənayeləşmənin gücləndirilməsi üçün müxtəlif milli inkişaf proqramları qəbul edilmişdir. İlk belə proqramlardan biri də 1968-ci ildə qəbul edilmiş Sənaye İnkişafı Aktıdır (6, səh 323). Bu akt sənaye inkişafının təmin edilməsi üçün zəruri olan iqtisadi siyasət üçün baza rolunda çıxış etmişdir. 1984-cü ildə isə Botsvanada Sənaye İnkişafı Siyasəti adlı proqram qəbul edilmişdir. Bu proqramın əsas məqsədi idxalın əvəz edilməsinin həyata keçirilməsindən ibarət olmuşdur. 1996-cı ildə ticarətdə əməkdaşlıqla əlaqədar Botsvananın da üzv olduğu Cənubu Afrika İnkişaf Cəmiyyəti tərəfindən protokol imzalandı (7, səh 102). Bu protokola əsasən daha məhsuldar texnologiyaların və biznes prosedurlarının tətbiqinə başlanılması iqtisadiyyat daxilində rəqabətin daha da sürətlənməsinə gətirib çıxardı. Nəticədə, 1998-ci ildə yeni Sənaye İnkişafı Siyasəti qəbul olundu. Bu siyasət daha məhsuldar və səmərəli olan və ixracın həcminin artırılmasına xidmət edən sənaye sahələrinin inkişafını dəstəkləyirdi. Yeni siyasətin əsas elementlərindən biri də kiçik və orta sahibkarlığın inkişafı qarşısında dayanan maneələrin aradan qaldırılması idi. Bununla yanaşı kiçik və orta sahibkarlığın inkişafına dəstəyin verilməsi məqsədilə 2001-ci ildə hökumət tərəfindən Vətəndaşların Təşəbbüskar İnkişafı Agentliyi yaradıldı. Bu agentlik subsidiyalaşdırılmış faiz dərəcələri ilə sahibkarlara kredit verirdi. Bunlarla yanaşı, diversifikasiya siyasətinin həyata keçirilməsi məqsədilə Botsvanada bir sıra əhəmiyyətli institutlar yaradılmışdır. Bunlara Botsvana İnkişaf Korporasiyası, İxracın İnkişafı və İnvestisiya Təşkilatı və Beynəlxalq

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Maliyyə Xidmətləri Mərkəzi aiddir. 2003-cü ildə yaradılan Beynəlxalq Maliyyə Xidmətləri Mərkəzi isə Botsvananı ümumilikdə Afrikada və onun yerləşdiyi regionunda ölkələr arası maliyyə və biznes xidmətlərini həyata keçirən mərkəzə çevirmişdir.

Botsvanada iqtisadiyyatın diversifikasiyası istiqamətində görülmüş tədbirlər uzun illər boyu diversifikasiya səviyyəsinin yüksəlməsinə imkan yaratmışdır. Belə ki, əgər 1986-cı ildə Botsvananın ÜDM-nin 48.9%-ni mədənçilik təşkil edirdisə, bu rəqəm 2009-cu ildə 26%-ə qədər azalmışdır (8, səh 142). Sonrakı dövrdə isə xidmət sektorunun payında əhəmiyyətli dəyişiklik baş vermişdir. Belə ki, 2015-ci ildə ÜDM-in strukturunda xidmət sektorunun payı 64.3%, sənaye 33.24%, kənd təsərrüfatı isə 2.45% səviyyəsində olmuşdur. Bütün görülmüş tədbirlərə və əldə edilmiş nəticələrə baxmayaraq Botsvanada qeyri-bərabərlik və yoxsulluq yüksək səviyyədədir. Dünya Bankının məlumatlarına əsasən əhalinin yalnız 30%-i yoxsulluq səviyyəsindən yuxarı səviyyədə yaşayır.

Nəticə

Göründüyü kimi müxtəlif resurslarla zəngin olan dövlətlər tərəfindən iqtisadiyyatın diversifikasiyasının böyük əhəmiyyətə malik olması nəzərə alınsa da və bu istiqamətdə müxtəlif tədbirlər görülsə də, əldə edilmiş nəticələr eyni deyildir. Ümumiyyətlə, iqtisadi diversifikasiya istiqamətində müxtəlif islahatların həyata keçirilməsi hələ diversifikasiyanın əldə olunması demək deyildir. Botsvana nümunəsində gördüyümüz kimi iqtisadiyyatın diversifikasiyasına xidmət edən müxtəlif institutlar yaradılsa, çoxsaylı aktlar və sənədlər qəbul olunsa da bu qədər zəngin ehtiyatlara malik olan ölkə əhalisi yoxsulluqdan əziyyət çəkməkdədir. BƏƏ nümunəsində isə biz tamam başqa mənzərənin şahidi olduq. BƏƏ Dubay və Abu-Dabi kimi əmirliklərində yüksək nəticələr əldə etmiş və turizm, xidmət sektorları və azad iqtisadi zonalar hesabına iqtisadiyyatın yüksək diversifikasiya səviyyəsini əldə edərək ölkəni yerləşdiyi regionun iqtisadi mərkəzinə çevirmişdir. Malayziya nümunəsində də uğurlu nəticələrin əldə olunduğunu gördük. Buna görə də deyə bilərik ki, iqtisadi diversifikasiyanın səmərəli olması üçün yerli iqtisadi amillər nəzərə alınmaqla düzgün strategiyanın müəyyənləşdirilməsi və sonrakı mərhələdə bu strategiyanın tam olaraq yerinə yetirilməsi təmin edilməlidir.

Ədəbiyyat

1. A generally liberal economy whose performance could further improve with structural reform. Trade Policy Review: United Arab Emirates, WTO Press Release: Press 263, 24 April, 2006
2. Dubai Economic Council. Business Environment, Enterprise Performance and Economic Development in Dubai. A Policy Report, Dubai, 2011
3. Schiliro D. Knowledge-Based Economies And The Institutional Environment, Theoretical and Practical Research in Economic Fields, III(1), 2012
4. Mohammed B. Y., Fauziah A. H., Suhaila A., J. Globalisation, Economic Policy, and Equity: The Case of Malaysia. OECD, 2000
5. Cheng F. F., Tan K. F., Cheng S.V. Impact Of The News Of Economic Transformation Program On Various Sectors In Malaysia Stock Market, University Putra Malaysia, 2013
6. Achim G., Tobias K., Patrick N. O., Isabelle R., Karl W. Africa's Progress in Regional and Global Economic Integration - Towards Transformative Regional Integration. Münster, May 30, 2016
7. Charles E. S. Open Skies for Africa: Implementing the Yamoussoukro Decision. World Bank Publications, Jun 23, 2010

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

8. Siphambe H.K., Narayana N., Akinkugbe O., Sentsho J. Economic Development of Botswana: Facets, Policies, Problems and Prospects. Bay Publishing, Gaborone, Botswana 2005

Орхан Мубариз оглу Багиров

Мировой опыт диверсификации экономики

Резюме

В статье рассмотрется политика диверсификации примененные в различных странах мира и их результаты сравнения. В первую очередь были рассмотрены в направлении осуществляемые мероприятия экономической диверсификации в Объединенных Арабских Эмиратов.

Ключевые слова: *диверсификация экономики, экономики знаний, правовые реформы, перерабатывающей промышленность, экономический коридор, индустриализации, бедность.*

Orhan Mubariz oglu Bagirov

Global experience in economic diversification

Resume

In the article the economic diversification strategies of different countries were reviewed and their results has been compared. First of all, the measures undertaken by United Arab Emirates in the direction of economic diversification were reviewed.

Key words: *Diversification of economy, knowledge economy, legal reforms, processing in7dustry, economic corridor, industrialization, poverty.*

Elmi redaktor: i.f.d.,dos. Y.Ə.Məmmədov
Daxil olub: 26.10.2018.
Çapa qəbul olunub: 31.10.2018.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az